**Öhdəlik daşıyan şəxslər tərəfindən şübhəli əməliyyatların müəyyən edilməsi meyarları**

Maliyyə institutları tərəfindən (banklar istisna olmaqla) aşağıda qeyd olunan meyarlara uyğun əməliyyatlar müəyyən edilərkən müştəri uyğunluğu tədbirləri həyata keçirilməli, araşdırmalar aparılmalı, **“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən, əmlakın cinayət yolu ilə əldə edilməsinə və/və ya terror aktının hazırlanmasında, təşkil olunmasında və ya törədilməsində, habelə terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunmasına şübhə və ya belə şübhə üçün əsaslar müəyyən edildikdə**, şübhəliliyi təsdiq edən sənəd və məlumatlar əlavə edilməklə müvafiq qayda və formada Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməlidir.

<table>
<tr><th>№</th><th>Meyar</th><th>Öhdəlik daşıyan şəxs</th></tr>
<tr><td>1</td><td>Bir şəxs tərəfindən son on iki ay ərzində müxtəlif bank hesabları, terminal və ya digər çatdırılma kanalları vasitəsilə ümumi məbləği 200 000 (iki yüz min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya ondan yuxarı məbləğdə investisiya hesabına mədaxil edildikdə;</td><td rowspan="4">İnvestisiya şirkətləri, investisiya fondları, fond idarəçiləri, xarici investisiya fondlarının nümayəndəlikləri</td></tr>
<tr><td>2</td><td>Son on iki ay ərzində şəxsin investisiya hesabına etdiyi ödənişləri onun orta aylıq gəlirindən (müştəri risk profili üzrə təyin olunan limitlərdən) yuxarı olduqda.<br>Qeyd:<br>aşağı riskli müştərilər üzrə - orta aylıq gəlirin 40 misli;<br>orta riskli müştərilər üzrə - orta aylıq gəlirin 30 misli;<br>yüksək riskli müştərilər üzrə - orta aylıq gəlirin 20 misli.</td></tr>
<tr><td>3</td><td>Son on iki ay ərzində şəxsin 60 000 (altmış min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya ondan yuxarı məbləğdə pul və ya qiymətli kağızları digər şəxsin hesabına köçürüldükdə;</td></tr>
<tr><td>4</td><td>Son on iki ay ərzində bir şəxs tərəfindən digər şəxsin investisiya şirkətindəki hesabına ümumi məbləği 60 000 (altmış min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya ondan yuxarı məbləğdə vəsait nağd şəkildə mədaxil etdikdə;</td></tr>
</table>

| | | |
|---|---|---|
| 5 | Yüksək riskli zonanın IP ünvanı vasitəsilə investisiya şirkətinin onlayn xidmətlərindən istifadə edildikdə; | |
| 6 | Gün ərzində üç və daha çox ölkənin IP ünvanı vasitəsilə investisiya şirkətinin onlayn xidmətlərindən istifadə edildikdə; | |
| 7 | Son 30 (otuz) gün ərzində on və daha çox ölkənin IP ünvanı vasitəsilə investisiya şirkətinin onlayn xidmətlərindən istifadə edildikdə. | |
| 8 | Alqı-satqı müqaviləsinin predmeti olan qiymətli kağızlar üzrə əqd məbləği onun bazar dəyərindən əhəmiyyətli dərəcədə (50%-dən və fərq 50 000 (beş yüz min) manatdan və ya ona ekvivalent xarici valyuta məbləğindən yuxarı olduqda) fərqləndikdə; | Mərkəzi depozitar |
| 9 | Şəxs tərəfindən son on iki ay ərzində müxtəlif investisiya şirkətləri vasitəsilə ümumi dəyəri 200 000 (iki yüz min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya ondan yuxarı məbləğdə qiymətli kağız alışı edildikdə. | |
| 10 | Son on iki ay ərzində sığortalı tərəfindən ümumi məbləği 60 000 (altmış min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya ondan yuxarı məbləğdə sığorta ödənişi edildikdə (mənbəyi əmək haqqı olan həyatın yığım sığortası istisna olmaqla). | Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar |